**Əliyeva S.** Azərbaycan tarixinin həqiqət anı // Respublika. - 2024. - 28 sentyabr. - **№ 212**. - S. 1, 5.

**"La hora de la verdad" - ispan dilində "həqiqət anı, həqiqət saatı" mənasını verən bu ifadə həqiqətin üzə çıxdığı, dərk edildiyi kulminasiya anlamına gəlir. Ernest Heminqueyin "Günortadan sonra ölüm" əsəri nəşr edildikdən (1932) sonra bu termin başqa dillərdə "həlledici sınaq məqamı" mənasında işlədilməyə başlamışdır. Böyük yazıçı əsərində "korrida" döyüşünü təsvir edərkən matodorun öküzlə döyüşünün kulminasiya nöqtəsini, ən təhlükəli məqamını - matodorun son və sarsıdıcı qılınc zərbəsini endirdiyi anı "həqiqət anı" (orijinalda "the moment of truth") kimi səciyyələndirir.**

27 sentyabr 2020-ci il heç şübhəsiz, Azərbaycan xalqının tarixində bir həqiqət anıdır. Məhz bu tarixdə xalqımız torpaqlarını 30 ilə yaxın işğal altında saxlayan düşmənlə döyüşə atılaraq, ona son, ölümcül zərbəsini endirərək bu sınaq anından alnıaçıq, üzüağ çıxdı.

30 il ərzində Azərbaycanın münaqişəni dinc yolla həll etmək təşəbbüslərinə və çağırışlarına məhəl qoymayan Ermənistan, onun havadarları ölkəmizin sülh yaratmaq səylərini acizlik və zəiflik əlaməti kimi başa düşür, Azərbaycan xalqının vuruşmaq bacarığının və arzusunun olmadığı haqqında mif yaradaraq, Qarabağı tədricən unudacağı əminliyi ilə yaşayırdı.

Etiraf edək ki, ermənilərin gerçəkliyi belə irrasional, qeyri-adekvat qəbul etməsi bizim işimizə yaradı. Bu illər ərzində Azərbaycan xalqı qarşısına çıxdığı mürəkkəb problemləri məharətlə dəf edərək yaşayıb-yaratdı, iqtisadiyyatını inkişaf etdirdi, beynəlxalq əlaqələrini gücləndirdi, dünyada özünə xeyli dost və tərəfdaş qazandı. Eyni zamanda keçmiş münaqişənin danışıqlar yolu ilə tənzimlənməsi prinsipinə sadiq qalaraq bütün sülh təkliflərinə dəstək verdi. Lakin müstəqilliyimizin ilk illərində ölkəmizdə yaranmış xaos və anarxiya şəraitindən istifadə edərək torpaqlarımızı işğal etmiş Ermənistan hakimiyyətdə hansı qüvvənin olmasına baxmayaraq, qeyri-konstruktiv mövqeyindən əl çəkmək istəmirdi. Belə vəziyyətdə Azərbaycanın ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, hətta silah gücünə olsa belə, təmin etməkdən başqa çıxış yolu qalmamışdı.

Qarabağın işğalında bilavasitə iştirak etmiş, əlləri azərbaycanlıların qanına bulaşmış cinayətkarlar - Köçəryan və Sarkisyanın korrupsioner rejimini inqilab yolu ilə devirərək hakimiyyətə gəlmiş Paşinyan və komandası da xələflərindən heç də fərqli olmayan, radikal mövqe tutmuşdu. Onun və tərəfdaşlarının sərsəm bəyanatları, işğal

olunmuş ərazilərdə xaricdən gətirilmiş ermənilərin məskunlaşdırılması, Şuşada, sərxoş rəqsləri xalqımızın səbir kasasını daşırsa da, Azərbaycan Prezidenti münaqişənin dinc həllinə tərəfdar olduğunu bütün beynəlxalq müstəvilərdə dəfələrlə bəyan edirdi. Eyni zamanda dövlət başçımız Ermənistanın işğalçılıq siyasətinin davam edəcəyi təqdirdə, torpaqlarımızı müharibə yolu ilə olsa belə azad edəcəyimizi çəkinmədən söyləyirdi. 1919-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya klubunun XVI illik iclasında çıxışında Prezidentimizin "Qarabağ Azərbaycandır və nida işarəsi!" sözləri bunun bariz nümunəsi oldu.

Azərbaycanın torpaqlarının bir hissəsini, o cümlədən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin azad edilməsi ilə nəticələnmiş 2016-cı il Aprel döyüşlərindən sonra da Ermənistan təcavüzkar və təxribatçı hərəkətlərindən əl çəkmədi. 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hücuma keçərək yeni ərazilər zəbt etmək cəhdi ordumuz tərəfindən qətiyyətlə alınsa da, ermənilər öz fitnəkar əməllərini davam etdirirdilər. Həmin ilin avqustunda erməni diversiya qrupunun bölmələrimiz tərifindən aşkarlanaraq zərərsizləşdirilməsi də onlara dərs olmadı. Əlbəttə, Azərbaycan rəhbərliyi Ermənistanın bütün təcavüzkar planlarından xəbərdar idi və bu barədə Minsk qrupu üzvləri də daxil olmaqla bütün dünya birliyinə dəfələrlə narahatlığını ifadə etmişdi. 2020-ci il sentyabrın 20-də BMT Baş Məclisinin 75-ci sessiyasının ümumi iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın yeni müharibəyə başlamaq niyyətində olduğunu açıq surətdə bildirmişdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin qoşunlarımızın mövqelərini və yaşayış məntəqələrimizi aramsız atəşə tutmasına cavab olaraq Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Hərb tariximizə "Dəmir yumruq" adı ilə daxil olmuş bu əməliyyat İkinci Qarabağ müharibəsinin başlanğıcı oldu. Xalqımız haqlı olaraq bu müharibəni Vətən müharibəsi adlandırdı.

Cəmi 44 gün davam edən bu müharibə hərb tarixində bəlkə də ən qısamüddətli müharibələrdən biridir. Lakin bu qısa müddət ərzində Azərbaycan Xalqı, onun Ordusu, Ali Baş Komandanı bütün dünyaya örnək ola biləcək döyüş əzmi nümayiş etdirdi. Bəlkə də müharibələr tarixində yeganə müharibədir ki, davam etdiyi dövrdə nə bir fərarilik, nə çağırışdan yayınma, nə də döyüşən bölmələrin bir qarış belə geri çəkilmə faktı qeydə alınmadı. Müharibənin nəticəsi olaraq Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Azərbaycanın parlaq qələbəsini, Ermənistanın isə tam kapitulyasiyasını təsdiq edən mühüm sənəd oldu.

Qazanılmış qələbə əslində Xalq-Ordu-Prezident birliyinin əməldə təcəssümü oldu. Müharibə dövründə bütün dünya Azərbaycan Ordusunun şücaətini və qəhrəmanlığının, dövlət başçımızın qeyri-adi liderlik keyfiyyətlərinin, sosial vəziyyətindən, dinindən, etnik kimliyindən asılı olmayaraq bütün Azərbaycan xalqının bir amal uğrunda yumruq kimi birləşmək qabiliyyətinin şahidi oldu.

27 sentyabr həm də bizim üçün ərazi bütövlüyümüz, torpaqlarımızın azad edilməsi uğrunda öz canlarını fəda etmiş şəhidlərimizi anım günüdür. Onlar bizim inanc və fəxarət mənbəyimiz, milli dəyərimizdir. Məhz onların sayəsində biz qaməti düz, başıdik, qürurlu bir xalqa çevrilmişik. Həm müharibə, həm də müharibədən sonra keçən dövr xalqımızın öz şəhidlərinin xatirəsini necə əziz tutduğunu, qazilərinə qayğı ilə yanaşdığını bir daha təsdiq etdi.

İkinci Qarabağ savaşında Azərbaycanın möhtəşəm qələbəsi həm də regionumuzda yeni geosiyasi gerçəkliklər yaratdı. İndi hamıya gün kimi aydındır ki, Cənubi Qafqaz regionu artıq 2020-ci il 27 sentyabra qədərki region olmayacaqdır. 44 günlük müharibə Azərbaycanın regionda lider dövlət statusunu daha da möhkəmləndirməklə yanaşı, çətin sınaqlar dövründə yanımızda olmuş, qələbəmizə mühüm pay vermiş, dostumuz və müttəfiqimiz Türkiyənin yerləşdiyimiz coğrafiyada söz sahibinə çevrildiyini göstərdi.

Böyük Zəfərin yaratdığı geosiyasi gerçəkliklər bölgədə barışın, təhlükəsizliyin təmin olunması, çoxtərəfli əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaratmışdır. Azərbaycan rəhbərliyinin bu istiqamətdə konkret təşəbbüsləri, qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilmiş quruculuq işləri dövlətimizin Cənubi Qafqazı sülh regionuna çevirmək niyyətinin səmimiliyindən xəbər verir. O cümlədən üçtərəfli Bəyanata uyğun olaraq nəqliyyat kommunikasiyaların bərpası da bütün region ölkələrin, o cümlədən Ermənistanın inkişafı üçün geniş perspektivlər açır.

Postmüharibə dövründə Ermənistanda cərəyan etmiş proseslərin təhlili göstərir ki, erməni xalqı da mövcud gerçəkliyi qəbul edir, yeni müharibənin onu hansı fəlakətlər girdabına sürükləyəcəyini aydın dərk edir. Müharibədən əvvəl Azərbaycan xalqını, onun dəyərlərini hər fürsətdə aşağılayan, dövlətimizin hərbi qüdrətini 90-cı illərin əvvəllərinin prizmasından qiymətləndirən Ermənistan siyasi və intellektual elitası da öz ölkələrinin Azərbaycanla iqtisadi, hərbi rəqabətqabiliyyətli olmadığını, hətta yeni müharibənin başlanacağı təqdirdə, Ermənistanın bir dövlət kimi dünya siyasi xəritəsindən silinəcəyini etiraf edirlər.

Buna baxmayaraq, onlar Azərbaycana qarşı öz revanşist fikirlərindən də əl çəkmək istəmir, "bəlkə də qaytardılar" xülyası ilə yaşayaraq 30 il mövcud olmuş status-kvonun bərpa olunacağına ümid edirlər. Azərbaycanın güclənməsini istəməyən yaxın və uzaq ölkələrin rəsmi dairələrinin Azərbaycan-Ermənistan münasibətlərində yaşanan problemlərlə bağlı səsləndirdikləri sərsəm bəyanatlar, Ermənistana səfərləri də erməni şovinist qüvvələrində bir ümid çırağı yandırır. Bu qüvvələr artıq öz həllini tapmış Qarabağ münaqişəsini yenidən alovlandırmaq, Azərbaycanın sülhyaratmaq siyasətinin reallaşmasına mane olmaq üçün dəridən-qabıqdan çıxır, hətta silahlı toqquşmalara gətirib çıxarmış əməllərə belə əl atırlar. Lakin açıq savaşda düşmənin başını əzmiş Azərbaycan buna bir daha imkan verməyəcək.

Azərbaycanla zor, təhdid dilində danışmaq, öz xain məqsədlərinə çatmaq üçün hansısa kənar güclərin dəstəyinə arxalanmaq Ermənistana heç bir fayda gətirməyəcək. "Dəmir yumruq" yerindədir. Ermənistanın yeganə xilas yolu Azərbaycanla münasibətləri yaxşılaşdırmaqdan keçir. Bunu onlar nə qədər tez anlasalar, bir o qədər onlar üçün faydalı olacaq.

Bütün fəlsəfi ensiklopediyalarda, lüğətlərdə həqiqət ədalətin, düzgünlüyün sinonimi kimi verilir. Azərbaycan 27 sentyabrda başladığı Vətən müharibəsində qələbə çalmaqla həm də ədalətin, düzgünlüyün qələbəsinə, zəfərinə nail oldu.